**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**7 yanvar 2026-cı il** **10-1/3-1-4/2026**

## Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

"Professional Auditor Xidmətləri" MMC tərəfindən "Marvel Azərbaycan" MMC-də aparılmış auditin nəticəsi barədə Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov və Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi E.İbrahimov tərəfindən təqdim edilmiş 2025-ci il 30 dekabr tarixli xidməti məktuba (əlavə olunur) əsasən Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "Professional Auditor Xidmətləri" məhdud məsuliyyətli cəmiyyəti və həmin cəmiyyətin auditoru Əliyev Aftandil Adıgözəl oğlu barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə **əmr edirəm:**

1. "Marvel Azərbaycan" MMC-də audit apararkən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsi səbəbindən Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 6-cı "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsində (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) nəzərdə tutulmuş peşə məsuliyyəti müddəalarına əməl edilməməsi" və 11-ci "Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsi və keyfiyyətsiz auditor xidməti göstərilməsi" bəndlərinə əsasən "Professional Auditor Xidmətləri" məhdud məsuliyyətli cəmiyyətinə və həmin cəmiyyətin auditoru Əliyev Aftandil Adıgözəl oğluna şəxsi işinə qeyd edilməklə xəbərdarlıq elan edilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/1Z6uEl02hTMGfxUxeUOYbzwk3jeUq9HTBeELmO3QH1E%3D

2. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrdən irəli gələn məsələləri həll etsin.

3. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin qeyd edilən auditora göndərilməsini təmin etsin.

4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/1Z6uEl02hTMGfxUxeUOYbzwk3jeUq9HTBeELmO3QH1E%3D